# Səfəvilər xanədanı Azərbaycan türk dövlətidir

**1501-ci ildə Azərbaycan hüdudlarında Şah İsmayıl tərəfindən əsası qoyulan Səfəvi dövlətinin sərhədlərini qısa dövr ərzində xeyli genişləndirmək mümkün oldu. Uğurlu fəthlərdən sonra çox geniş ərazilər mərkəzi Təbriz olan Səfəvilər dövlətinə birləşdirildi.**



Şah İsmayılın hakimiyyəti illərində bu dövlətin hüdudları şimalda Şimali Qafqaz, cənubda Hind okeanı sahillərinə, şərqdə Herat və Qəndəhar, qərbdə isə Bağdada qədər uzanırdı və Şərqin, eləcə də islam dünyasının ən böyük dövlətlərindən biri idi. Şah İsmayılın oğlu Şah Təhmasibin hakimiyyəti illərində də Səfəvi dövləti öz qüdrətini və əzəmətini qoruyub saxlaya bildi.

Elmi-tarixi ədəbiyyatda Səfəvi dövlətinin İran məfhumu ilə eyniləşdirilməsi mütəxəssislər tərəfindən heç də birmənalı qəbul edilmir. Çünki İran məfhumu elmi-tarixi ədəbiyyata məhz coğrafi anlam kimi gəlmişdi. Amma son dövrlərin elmi-tarixi ədəbiyyatında hətta orta əsrlərə aid edilən araşdırmalarda belə İran məfhumuna daha çox siyasi məzmun verilir. Mütəxəssislərin fikrincə, erkən orta əsrlərdən başlayaraq, təxminən altı yüz il İran məfhumunun hansısa bir anlamda istifadə olunmasına yazılı ədəbiyyatda rast gəlmək mümkün deyil. Yalnız Elxanilərin hakimiyyəti illərinə aid olan qaynaqlarda İran adı yenidən canlandırılır.






Orta əsrlər qaynaqlarında, o cümlədən Səfəvi dövrünə aid olan məxəzlərdə İran məfhumu ilə bəzi hallarda rastlaşmaq mümkündür. Məsələn, mülki-İran, məmləkəti-İran və s. Sonralar isə bu ifadələr qısaldılaraq sadəcə İran kimi işlədilmişdir. Amma bu ifadələrdə İran sözünün siyasi deyil, coğrafi anlamda olması göz qabağındadır. İngilis tədqiqatçısı Rocer Seyvorinin yazdığı kimi, müəyyən müddət keçdikdən sonra isə "İran" sözünün məzmun baxımından transformasiyaya məruz qalması və onun tədricən siyasi-coğrafi məzmun kəsb etməsi baş verdi.

Səfəvi dövlətinin ərazisinin böyük hissəsinin İran coğrafi anlayışına aid edilən ərazilər olması qəbul olunmalıdır. Lakin Səfəvi dövlətinin ərazisi heç də İran coğrafiyası ilə məhdudlaşmırdı. Şah İsmayıl Səfəvilər dövlətinin əsasını heç də İran ərazisində deyil, Azərbaycan ərazisində qoymuşdu. Sonradan isə bu dövlətin sərhədləri, ilk növbədə, İran hesabına, sonra isə başqa ərazilər hesabına genişləndirilmişdi. O cümlədən, Səfəvi dövlətinin tərkibinə qatılmış İraqi-ərəb (Bağdad və onun ətrafı), Hörmüz, Orta Asiya əraziləri, hazırda Əfqanıstan ərazisində qalmış Herat, Qəndəhar və digər ərazilər İran coğrafiyasına aid olan ərazilər deyildi.

Ona görə də Səfəvi dövlətinin ərazilərini İran coğrafiyası ilə məhdudlaşdırmaq və onu İran dövləti kimi təqdim etmək tarixi reallığı tam şəkildə əks etdirmir. Başqa sözlə deyilərsə, Səfəvi dövləti Azərbaycanda yaradıldıqdan sonra İran və ona qonşu olan coğrafiyaya yayılmış türk dövləti idi.

Səfəvi mövzusunda olan mənbələrdə tək-tək təsadüf edilən İran sözü, heç də bütünlüklə İran coğrafiyasında mövcud olan dövləti ifadə etmirdi. O dövrün müəllifləri və eləcə də şahlar tərəfindən aparılan yazışmalarda Səfəvi dövlətinin adının qələmə alınması üçün müxtəlif ifadələrdən istifadə olunmuşdur. Həmin ifadələr arasında daha çox "məmaliki məhrusə" ifadəsi ilə qarşılaşmaq mümkündür. Məsələn, "Xülasüt-təvarix" əsərinin müəllifi Şah İsmayıldan miras qalmış dövlətin ərazisini xatırladanda belə yazırdı: "Onun məmaliki məhrusəsinə Azərbaycan, ərəb İraqı, əcəm İraqı, Xorasan, Fars, Kirman, Xuzistan və hakimiyyətinin əvvəllərində Diyarbəkr daxil idi". O da bildirilir ki, məhz bu ifadə sonralar transformasiya olunaraq "məmaliki İran", "məmləkəti İran" və onlar da dəyişikliyə məruz qalaraq sadəcə "İran" halına düşmüşdü.

Qeyd etmək lazımdır ki, hətta Səfəvi dövlətinin ikinci şahı olan Şah Təhmasib elm aləminə yaxşı məlum olan "Şah Təhmasibin təzkirəsi" adlı əsərində "İran" sözünü bir dəfə də olsun xatırlatmamışdır. O, hökmdarı olduğu dövləti "Qızılbaş vilayəti", "bizim ölkə", "Şərq ölkəsi" kimi təqdim etmişdir.

"İran" sözünün siyasi məzmununun qabardılması ilə elmi-tarixi ədəbiyyatda həm də Səfəvi dövlətinin mahiyyət və xarakterinin gizlədilməsi meyili özünü göstərməkdədir. Bir sıra müəlliflər öz əsərlərində "İran" sözündən gen-bol istifadə etməklə İran coğrafiyasında mövcud olan dövlətlərin bir çətir altına gətirilməsinə, onların etnik-siyasi mənsubiyyətinin İran dövlətçiliyi ilə məhdudlaşdırılmasına cəhd göstərirlər. Bir sıra tədqiqatçılar da Səfəvi dövlətinin İran adı altında ümumiləşdirilməsini heç də bütünlüklə qəbul etmirlər. Yəni Səfəvi dövlətinin təşkilatlanmasının əsası olan qızılbaşlara məxsus mədəniyyətlə İran coğrafiyasında məskunlaşan etnik tərkibin mədəniyyəti eyniləşdirilmir və qızılbaşlar tərəfindən İran coğrafiyasına həm də yeni bir dövlətçilik mədəniyyətinin gətirildiyi bildirilir. Məsələn, bildirirlər ki, Səfəvilər XVI əsrin əvvəlində İranı fəth etdilər və İrana zorla şiə məzhəbini qəbul etdirdilər. Yəni Səfəvi dövləti iranlıların yaratdığı dövlət deyildi, İran coğrafiyasına kənardan gətirilmiş bir dövlət idi.

Səfəvi tarixinin sanballı tədqiqatçılarından olan Minorski yazırdı ki, qızılbaşlarla iranlıların müştərək milli tarixi yox idi. Onun sözlərinə görə, bu iki tərkib arasında müəyyən məsələlərdə bir barışmazlıq da var idi və qızılbaşlar təsəvvür edə bilmirdilər ki, Səfəvi dövlətinin əsas dayaqlarından biri olan qızılbaş qoşunlarında iranlılar aparıcı vəzifə tutmuş olsunlar (R.Seyvori). Başqa bir tədqiqatçı bildirirdi ki, Şah İsmayılın qanında iranlı qanı yox idi və ya çox cüzi idi. Hakimiyyətə gələndən sonra o, iranlı irqini və dilini həqarətlə qarşıladı və İranı qızılbaş tayfalarının hakimiyyətinə verdi. Bu tədqiqatçı onu da yazırdı ki, türk dövlətlərini (iki yerə parçalanmış Ağqoyunlu dövləti nəzərdə tutulur) devirməkdə və vahid dövlət yaratmaqda məqsədi heç də İranın siyasi və milli vəhdətini təzələmək deyildi. Yəni Şah İsmayıl heç də İran dövləti yaratmırdı.

"İranlılar" deyəndə tədqiqatçılar bir qayda olaraq fars etnik tərkibinin üstünlük təşkil etdiyi bir toplumu nəzərdə tuturlar. Səfəvi dövlətinin tarixində digər etnik tərkiblər kimi, fars etnik tərkibinin də müəyyən rolu olması istisna deyil. Amma dövlətin mənşəyinə gəlincə, Səfəvi dövləti türk (Azərbaycan) torpağında, türklər (Azərbaycan türkləri) tərəfindən yaradılan, türk tayfa ənənələrinin xüsusi yer aldığı, türk (Azərbaycan) dilinin əsas ünsiyyət dili olduğu, dövlətin ictimai, siyasi, hərbi, mədəni həyatının əsasını türklərin təşkil etdiyi bir dövlət idi.

Səfəvi dövlətçilik sisteminin qurulmasında da türk idarəçilik təcrübəsi aparıcı yerə malik idi. Burada həm Qaraqoyunlu, həm də Ağqoyunlu dövlətlərinin idarəçilik təcrübəsindən, habelə, digər türk tayfa idarəçilik elementlərindən geniş istifadə olunmuşdu. Əslində, bu təbii idi. Çünki bölgə coğrafiyasında mövcud olmuş fars və ərəb dövlətçilik təcrübəsindən artıq uzun bir müddət keçmişdi. Ona görə də Səfəvi dövlətçilik mədəniyyəti üçün daha real baza atabəylərin, teymurilərin və onlardan daha yaxın olan Qaraqoyunlu və Ağqoyunlu türk dövlətçilik mədəniyyəti, habelə türk tayfa idarəçilik mədəniyyəti ola bilərdi. Şah İsmayıl tərəfindən türk tayfalarına dayaqlanmaqla əsasını qoyduğu Səfəvi dövləti isə həmin dövlətlərin təcrübəsinin daha yüksək səviyyəsi idi.

**Mehman SÜLEYMANOV,**
**tarix elmləri doktoru, professor,**
**ehtiyatda olan polkovnik**